# QADINLA KİŞİNİN YARANMASI

Artıq dünyamız yaranmışdı. Hər nə öz yerində, hər nə öz taleyini yaşamaqdaydı. Dağlar göylərə ucalırdı; dənizlər yer üzünün dərin yerlərini doldurmuşdu; ormanlar yaşıl örtük kimi dünyanın böyük bir parçasını örtmüşdü; bozqırlar öz qızılı rəngiylə üfüqlərdən üfüqlərə uzanırdı. Dağların, dənizlərin, ormanların və bozqırların hər birinin öz canlıları, öz bitkiləri vardı. Dünyamız, o qədər zəngin, o qədər rəngarəng idi ki, bunu insan fanteziyasının, insan düşüncəsinin qavraya bilməsi mümkün deyil! Bizsiz, hər bir bitki, hər bir canlı tam özüydü və canlı-cansız olan bütün varlıqların hər birisi özlüyündə bir dünya idi və bütün bunları ağlasığmaz əngin qoynunda yaşadan, hələ bizsiz olan, bu dünya idi.

Ulu Olympos dağlarının ən yüksək nöqtəsindən bu dünyanı seyr edən tanrılar tanrısı Zeus öz yaradıcılığından dərin zövq alsa da, nəyinsə yerinin boş olduğunu, nəyinsə çatışmadığını ürəyinin dərinliklərində duyurdu. Düzdür, yer üzündə yaşayan hər bir canlının, hər bir bitkinin, onu dərindən maraqlandıran və hər vaxt əyləndirən öz sirri, öz dünyası vardı; ancaq onların heç birisi göylərdə yaşayan tanrıların özəlliklərini yer üzündə yaşada bilmirdi. Onlar da sevirdilər, onlar da öfkələnir və bağırırdılar. Onlar da öz haqlarını və ya üstünlüklərini qorusunlar deyə döyüşlərə girişirdilər. Ancaq bütün bunlar göylərdə yaşayan tanrıların həyatı kimi qərarlanmış və uzun-uzadı ölçülüb-biçilmiş olmurdu. Odur ki, onlarınkı kimi də maraqlı ola bilmirdi. Bir sözlə, yer üzündə yaşayan varlıqlar tanrıların yaşadıqları sevgi, nifrət, qısqancılıq, intiqam, bağışlama, şəfqət, sayğı, qüdrət və bu kimi duyğuları onlar kimi yaşaya bilmirdilər.

Tanrılar tanrısı Zeus, ulu Olympos dağlarının ən yüksək bir nöqtəsindən yer üzünü süzərək düşünürdü ki, bu çatışmazlığı yalnız yeni bir varlığın yaranmasıyla aradan qaldıra biləcəkdir. Bu yeni varlıq, doğulub ölsə də, tanrılar kimi olmalıdır, onlar kimi sevməli, onlar kimi nifrət etməli və onlar kimi başqa varlıqların taleyinə hakim kəsilməlidir. Belə olduqda, o, heç zaman darıxmayacaq; qadını Heranın cansıxıcı laqqırtıları onun gününü qara etməyəcəkdir və torpaqda baş verən olaylar o qədər maraqlı olacaqdır ki!

Beləliklə, tanrılar tanrısı Zeus insanı yaratmağa qərar verdi.

İlk öncə, qadını yaratmaq istədi. Bunun üçün, qadın tanrıları, yəni, tanrıçaları göz önünə gətirdi; onlar, onun üçün bu işdə ona örnək və ülgü olmalıydılar.

Qızı Aphroditedən başladı. Ondan, tanrıların belə dizlərini titrədən gözəlliklərindən və az qala cansız varlıqlarda belə coşğun sevgi duyğuları oyadacaq baxışlarından aldı. Başqa qızı Artemisdən onu heyvanlar dünyasının tanrıçası edən, heyvanlara uyğun davranma bacarığından aldı.
Qızı Athenedən çox dolaşıq və çətin durumlarda öz ağıllı fikirləriylə düyünləri aça bilən və əl işlərində böyük bacarığı olan özəllilklərindən aldı. Dənizlərin ən dərin yerlərində yurd salan Nereusun qızı tanrıça Thetisdən ana sevgisini və toxtaqlıq verən kövrək səsini aldı. Tanrıça Demeterdən, becərtmə və törətmə gücünü aldı. Qadını və bacısı Heradan sözgəzdirmə həvəsini, altdan-altdan işlər gördüyünü və bitib tükənməz deyingənliyini aldı. Elə buradaca xəyalı çox uzaqlara getdi; minlər, bəlkə də

milyonlar illər ardına. Heranı odlu-odlu o sevdiyi zamanlara. Gecələri ulduzları ovuc-ovuc dərib onun saçlarına düzdüyü və gündüzləri ağappaq buludlarla onun gözəl və altun məmələrini oxşadığı çağlara. O sevdalarla, o gözəlliklərlə dolu zamanlardan nə qaldı! Hera, göylər qədər sevdiyi qadın qoşulub paxıl tanrılara onu devirmək istəmədimi! Minlər, bəlkə də milyonlar illər ardında qalmış o gözəl günləri düşünərkən ürəyini bir həsrət çulğaladı və göz yaşları yanaqlarından süzülərək  qocaman əllərində yoğurduğu və artıq qadın biçimi almaqda olan xəmirə bənzər kütləyə axdı. Beləliklə tanrılar tanrısı Zeus qadının varlığına öz göz yaşlarından qatdı.

Odur ki, qadınlar ruhlarını, ən gözəl olaraq, göz yaşlarıyla ifadə edə bilirlər.

Tanrılar tanrısı Zeusun, kişini yaratmaqda da yetərincə örnəyi vardı. Birinci olaraq, qıvırcıq və altun saçlı oğlu Appolondan yay tutmaq və ox ata bilməyi aldı. Oğlu Aresdən, amansız və qanlı döyüşlərdən zövq almasını aldı. Topal və çirkin görünüşlü oğlu Hephaıstosdan bir çox şeylər ala biləcəkdi; ondan ev, silah və bir çox yararlı şeylər düzəltmək bacarığını aldı. İndi isə, gəlib özündən kiçik qardaşı Poseidona çatdı. Qocaman başlı, qara və pırtlaşıq saçlı bu qardaşından nələr görməmişdi ki o! O da tanrılar tanrısı olmaq istəyində olmuşdu və uzun çəkişmələrdən, didişmələrdən sonra dənizlər tanrısı olmaqla razılaşmışdı. Ondan dağları silkələyən, dənizləri alt-üst edən acığını aldı və onun özünü belə göylərdə qorxuya salan bağırtısını və sonsuz dağıdıb məhv etmə gücünü aldı. Onunla keçirtdiyi düşmənliklərlə dolu o günləri düşünərkən onun intiqam almaqda öldürücü acığını xatırladı və bu an tanrılar tanrısı Zeus içindəki coşan

suyunu boşaltmağa ehtiyac duydu. Gördüyü işini, şirin yerində kəsməsin deyə, erkəklik orqanını, qocaman əllərində tutduğu xəmirə bənzər kütləyə yönəldib içinin suyunu ona boşaltdı. Bununla da tanrılar tanrısı Zeus kişinin varlığını öz işəyilə yoğurdu.

Odur ki, kişilər...

Berlin, 2008